## RƏSMİ SƏNƏDLƏR

### Yusif Səmədoğlunun 90 illiyinin qeyd edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2025-ci ilin dekabr ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı, tanınmış ictimai xadim Yusif Səmədoğlunun (Yusif Səməd oğlu Vəkilovun) 90 illiyi tamam olur.

Yusif Səmədoğlu XX əsr Azərbaycan nəsrinin yetirdiyi nadir istedada malik böyük simalardandır. Yüksək bədiilik nümunəsi olan dərin ictimai-mənəvi məzmunlu əsərləri, o cümlədən hekayələri, romanları və film ssenariləri ilə ədəbi prosesdə iz qoymuş yazıçının ötən əsrin 60–70-ci illərində milli nəsrin keyfiyyətcə yeni mərhələyə keçməsində xüsusi xidmətləri vardır. Parlaq mədəniyyət hadisəsinə çevrilən, dünya və insan haqqında məşhur "Qətl günü" romanı ədibə Azərbaycanın hüdudlarından uzaqlarda da şöhrət qazandırmışdır. Yusif Səmədoğlu rəhbəri olduğu mühüm ədəbi-bədii məcmuələrdən milli düşüncə və ideyanın daha geniş yayılması üçün tribuna kimi istifadə etmiş, ölkədə azadlıq hərəkatının və müstəqillik uğrunda mübarizənin ön sıralarında dayanmış, xalqın taleyüklü məsələlərinə münasibətdə həmişə vətəndaş-ziyalı mövqeyi ilə seçilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli bədii fikir xəzinəsinin zənginləşməsi işinə layiqli töhfələr vermiş Xalq yazıçısı Yusif Səmədoğlunun 90 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Xalq yazıçısı Yusif Səmədoğlunun 90 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 sentyabr 2025-ci il***

**Respublikanın ədəbiyyat xadimlərinə Azərbaycan SSR fəxri adlarının verilməsi haqqında**

**AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI**

Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə aşağıdakılara fəxri adlar verilsin:

AZƏRBAYCAN SSR XALQ YAZIÇISI
Ə.Əbülhəsən (Ələkbərzadə Əbülhəsən Əlibala oğlu)
Qasımov İmran Haşım oğlu
Əfəndiyev İlyas Məhəmməd oğlu
AZƏRBAYCAN SSR ƏMƏKDAR İNCƏSƏNƏT XADİMİ
Abbaszadə Hüseyn Abbas oğlu
Cabir Novruz (Novruzov Cabir Mirzəbə oğlu)
İbrahimbəyov Maqsud Məmmədibrahim oğlu
İbrahimov İshaq İbrahim oğlu
Kürçaylı Əlağa Həsənoğlu oğlu
Nəbi Xəzri (Babayev Nəbi Ələkbər oğlu)
Fikrət Qoca (Qocayev Fikrət Göyüş oğlu)
***Yusif Səmədoğlu (Vəkilov Yusif Səməd oğlu)***

***Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Q.Xəlilov***
***Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi G.Əbilova***
***Bakı şəhəri, 30 iyul 1979-cu il***

**Y.S.VƏKİLOVUN “ŞÖHRƏT” ordeni ilə təltif edilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə Vəkilov Yusif Səməd oğlu (Yusif Səməd oğlu) “Şöhrət” ordeni ilə təltif edilsin.

***Azərbaycan Respublikasının prezidenti,***
***Heydər Əliyev.***
***Bakı şəhəri, 19 dekabr 1995-ci il.***

**"Xalq yazıçısı" fəxri adının verilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan nəşrinin inkişafındakı böyük xidmətlərinə görə

Əfəndiyev Elçin İlyas oğluna
İbrahimbəyov Maqsud Məmmədibrahim oğluna
İbrahimbəyov Rüstəm Məmmədibrahim oğluna
İbrahimov Hüseyn Məmmədəli oğluna
Naibov Əkrəm Nəcəf oğluna
Rzayev Anar Rəsul oğluna
***Vəkilov Yusif Səməd oğluna***
"Xalq yazıçısı" fəxri adı verilsin.

***Azərbaycan Respublikasının Prezidenti,***
***Heydər Əliyev***
***Bakı şəhəri, 23 may 1998-ci il №708***